***UOT 911.3***

***S.F.Umaxanlı***
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi,*
*akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*
*sema_umaxanli90@mail.ru*

# ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONUNUN KƏND ƏHALİSİNİN MƏSKUNLAŞMASI

https://doi.org/10.30546/2520-2049.73.3.2025.058

***Açar sözlər:*** *Şəki-Zaqatala iqtisadi rayonu, yaşayış məntəqələri, kənd əhalisi, məskunlaşma, kəndlər*

Məqalədə Şəki-Zaqatala iqtisadi rayonunun kənd əhalisinin məskunlaşması təhlil olunur. Məskunaşma təbii-coğrafi şərait, tarixi, iqtisadi, sosial və demoqrafik xüsusiyyətlər əsasında formalaşır. Böyük Qafqazın cənub yamacı ərazilərinin coğrafi şəraitinə uyğun olaraq əhalinin və yaşayış məntəqələrinin yerləşməsi iqlim, relyef, hidroqrafiya, meşə və torpaq örtüyünün təsiri ilə formalaşmışdır. Relyef və iqlim şəraitindən asılı olaraq kəndlər daha çox düzənlik və alçaqdağlıq ərazilərdə salınmışdır. Ərazinin dağlıq zonalarında isə yaşayış məntəqələri daha əlverişli relyef və iqlim şəraitinə malik olan çay dərələrinin maili yamaclarında yerləşmişdir. Həmçinin, məqalədə inzibati rayonlar üzrə kənd yaşayış məntəqələrinin qruplaşması verilmişdir. Məqalədə qarşıya çıxan problemlərin həlli yolları və elmi baxımdan əsaslandırılmış təkliflər verilmişdir.

***С.Ф.Умаханлы***

# РАССЕЛЕНИЕ СЕЛЬСКОГО НАСЕЛЕНИЯ ШАКИНСКОГО-ЗАКАТАЛИНСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА

***Ключевые слова:*** *Шеки-Загатальский экономический район, населенные пункты, сельское население, поселок, села*

В статье анализируется расселение сельского населения Шеки-Загатальского экономического района. Поселение формируется на основе природно-географических условий, исторических, экономических,

социальных и демографических характеристик. По географическим условиям южных склонов Большого Кавказа размещение населения и поселений формировалось под влиянием климата, рельефа, гидрографии, лесного и земельного покрова. В зависимости от рельефа и климатических условий села преимущественно расположены на равнинах и в низменностях. В горных районах края поселения расположены на склонах речных долин, имеющих более благоприятные рельефно-климатические условия. Также в статье представлена группировка сельских поселений по административным районам. В статье даны пути решения возникших проблем и предложения, основанные на научной точке зрения.

***S.F.Umakhanli***

## SETTLEMENT OF RURAL POPULATION OF SHAKI-ZAQATALA ECONOMIC DISTRICT

***Keywords:*** *Sheki-Zagatala economic region, settlements, village population, settlement, villages*

The settlement of the rural population of the Sheki-Zagatala economic district is analyzed in the article. Settlement is formed on the basis of natural-geographic conditions, historical, economic, social, and demographic characteristics. According to the geographical conditions of the southern slopes of the Great Caucasus, the location of the population and settlements was formed by the influence of climate, relief, hydrography, forest, and land cover. Depending on the terrain and climatic conditions, the villages are mostly located in the plains and lowlands. In the mountainous areas of the territory, settlements are located on the slopes of the river valleys, which have more favorable relief and climatic conditions. The article also provides a grouping of rural settlements by administrative regions. In the article, solutions to the encountered problems and suggestions based on a scientific point of view are given.

## Giriş

Əhalinin məskunlaşma formaları şəhərlər və kəndlərdir. Azərbaycanda əhalinin məskunlaşma sistemində kənd yaşayış məntəqələrinin mühüm rolu vardır. Kənd əhalisi Azərbaycanın inzibati rayon mərkəzlərinin demoqrafik inkişafını təmin edən resurs mənbəyidir. Eyni zamanda, əhalinin təbii təkrar istehsalı, insan resursları ilə təminatının və demoqrafik potensialın güclənməsi

baxımından kənd rayonlarının sosial-iqtisadi və demoqrafik inkişafı ölkə üçün böyük əhəmiyyətə malikdir [9]. Azərbaycan dağlıq ölkə olduğundan hər bir regionda təbii-coğrafi şəraitin hündürlük qurşaqları üzrə müxtəlif cür dəyişməsinə səbəb olmuşdur. Bu dəyişiklik əhalinin məskunlaşmasına, ərazinin mənimsənilmə səviyyəsinə böyük təsir etmişdir. Əhalinin məskunlaşmasının inkişaf perspektivliyi onların ərazidə sıxlığı ilə müəyyən olunur. Dağətəyi ərazilərdə əhali sıx məskunlaşır. Bu sıxlıq təbii şərait və təbii ehtiyatların mənimsənilməsi ilə əlaqədardır. Dağlıq ərazilərdə isə əhalinin sıxlığı azdır. Çünki təbii-coğrafi şəraitlə əlaqədar olaraq dağ kəndləri nisbətən kiçik olur [4]. Buna görə də kənd yaşayış məntəqələri ərazi üzrə qeyri-bərabər paylanır. Bu məntəqələrin paylanması coğrafi mövqe (çay vadilərinə yaxınlıq, nəqliyyat yollarına görə yerləşmə, rayon mərkəzinə yaxınlıq və s.), relyef xüsusiyyətləri, iqlim şəraitinin müxtəlif olması ilə müəyyən olunur. Ölkədə əhalinin qeyri-bərabər məskunlaşması, ərazinin mənimsənilməsi dərəcəsinə görə regiondaxili fərqlər mövcuddur. Ayrı-ayrı hündürlük qurşaqlarının mənimsənilməsi üçün təbii-coğrafi şəraitin, iqtisadi-coğrafi və nəqliyyat mövqeyinin müxtəlifliyi əhalinin də u mütləq hündürlüklər üzrə müxtəlif dərəcədə məskunlaşmasına səbəb olmuşdur.

## Material və metod

Məqalədə Azərbaycan MEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun, Dövlət Statistika Komitəsinin məlumatlarından, iqtisadi və sosial sahədə tədqiqat aparmış alimlərin əsərlərindən istifadə edilmişdir. E.Q.Mehrəliyev, Z.N.Eminov, N.Ə.Paşayev, N.H.Əyyubov, E.S.Bədəlov, Z.T.İmrani, R.N.Kərimov, M.O.Sadıqov, H.M.Tahirova və b. ayrı-ayrı iqtisadi rayonlar üzrə əhalinin sayını, demoqrafik inkişafını, məskunlaşmasını, şəhər və kənd əhalisini, məşğulluq strukturunu, təsərrüfat sahələrini öyrənmişlər [3,6,7,8,10].

Tədqiqat işi statistik, müqayisəli təhlil, sistem-struktur və s. metodlar əsasında işlənmişdir.

## Təhlil və müzakirə

Tədqiqat obyektinə Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi rayonu daxildir. İqtisadi rayon şimalda Rusiya Federasiyasının Dağıstan Respublikası ilə, şimal-qərbdə Gürcüstan Respublikası ilə həmsərhəddir. Tərkibinə Balakən, Zaqatala, Qax, Oğuz, Qəbələ, Şəki inzibati rayonları və respublika əhəmiyyətli Şəki şəhəri daxildir. Ərazisi 8,84 min km$^2$ olmaqla, ölkə ərazisinin 10,2%-ni əhatə edir. Bu iqtisadi rayonun məskunlaşma sistemi 6 şəhər, 7 qəsəbə və 336 kənd yaşayış məntəqəsi ilə təmsil olunur [1]. Respublika

kənd məskənlərinin 7,9%-i iqtisadi rayonun payına düşür. Bu kənd yaşayış məntəqələrində 2023-cü ilin məlumatına görə, 446,3 min nəfər və ya 71,6% əhali yaşayır. Respublika kənd əhalisinin 9,7%-ni təşkil edir. İqtisadi rayonun ümumi əhalisinin sayı 623,6 min nəfərdir. Regionun kənd əhalisi ümumi əhalinin 71,6%-i qədərdir (Şəkil 1).

Şəki-Zaqatala iqtisadi rayonunun kənd yaşayış məntəqələrinin qruplaşmasına görə 501-1000 nəfər olan kəndlər çoxluq təşkil edir və ümumi kəndlərin 24,4%-ni əhatə edir. Bu qrupda ən çox kənd Qəbələ rayonundadır. Kəndlərin strukturunda ikinci yeri əhali sayına görə 201-500 və 1001-2000 nəfər olan kəndlər tutur ki, onların da sayı 69-dur [9]. Əhalisinin sayı 201-500 olan kəndlər daha çox Qaxda, 1001-2000 nəfər olan kəndlər isə Şəki inzibati rayonundadır. İqtisadi rayonda daha sonra əhalisi 2001-3000 nəfər arasında olan kəndlər təşkil edir ki, onların da sayı 32-dir. Bu kəndlər ən çox Balakən və Şəki rayonlarındadır.




***Şəkil 1.*** *Şəki-Zaqatala iqtisadi rayonunun kənd əhalisinin sayının dəyişməsi, 2023 [1]*

Kənd məskunlaşma sistemində dördüncü yerdə əhalisi 101-200 nəfər olan kəndlər durur. Onların sayı 26 olmaqla, Zaqatala, Balakən və Qax rayonların hər birində 7 kəndlə təmsil olunur. Regionun kəndlərinin 4,8%-ni əhalisinin sayı 50-yə qədər olan 16 kənd tutur. Ən çox kənd Balakən rayonuna məxsusdur. Sonuncu yerləri isə əhali sayı 51-100 nəfər və 5000-dən çox olan kəndlər təşkil edir ki, onların sayı da müvafiq olaraq 13 və 12-dir. Şəki-Zaqatala iqtisadi rayonunun kənd məskunlaşma sisteminin qruplaşmasını aşağıdakı cədvəldən aydın görmək olar (Cədvəl 1).

***Cədvəl 1.***

*İnzibati rayonda kənd yaşayış məntəqələrinin qruplaşması*

| Əhalinin sayına görə | Balakən | Zaqatala | Qax | Şəki | Oğuz | Qəbələ | İqtisadi rayon |
|---|---|---|---|---|---|---|---|
| 50-ə qədər | 5 | 4 | 4 | 2 | - | 1 | 16 |
| 51-100 | 4 | 3 | 3 | 1 | 1 | 1 | 13 |
| 101-200 | 7 | 7 | 7 | 2 | 2 | 1 | 26 |
| 201-500 | 12 | 9 | 17 | 11 | 5 | 15 | 69 |
| 501-1000 | 8 | 12 | 12 | 17 | 14 | 19 | 82 |
| 1001-2000 | 3 | 13 | 11 | 19 | 8 | 15 | 69 |
| 2001-3000 | 8 | 6 | 3 | 8 | 1 | 6 | 32 |
| 3001-5000 | 7 | 2 | 1 | 4 | 1 | 2 | 17 |
| 5000-dən çox | 3 | 4 | - | 4 | 1 | - | 12 |
| Cəmi | 57 | 60 | 58 | 68 | 33 | 60 | 336 |

***Mənbə:*** *Cədvəl Azərbaycan Respublikası əhalisinin 2019-cu il siyahıyaalması materialları əsasında hesablanmışdır* [2]

İnzibati rayonlar arasında əhalinin məskunlaşma sistemində müxtəlif fərqlər mövcuddur (Şəkil 2). Balakən inizbati rayonunun kənd məskunlaşma sistemi 57 kənd ilə təmsil olunur. Balakən rayon ərazisinin relyefinin dik olması və çox parçalanması kəndlərin yüksəkliyə doğru azalmasına səbəb olmuşdur. Rayon ərazisinin demək olar ki, yarısı məskunlaşmamışdır. 2023-cü ilin məlumatına görə rayonun kənd əhalisinin sayı 84,4 min nəfər olmaqla, iqtisadi rayonun kənd əhalisinin 18,9%-ni təşkil edir. İnzibati rayonda kəndlər 200-500 metr hündürlükdə yerləşir. Ən yüksəkdə yerləşən kəndləri Böyüktala və Gərəkli kəndləridir. Əhali sayına görə isə Katex kəndi fərqlənir. Rayonda əhalisinin sayı 201-500 nəfər olan kəndlər üstünlük təşkil edir. Onların sayı 12 olmaqla, ümumi kəndlərin 21,1%-ni əhatə edir. Ən böyük kəndləri isə əhalisinin sayı 3001-5000 nəfər olan yaşayış məntəqələridir. Onların sayı 7-dir. 5000-dən çox əhalisi olan cəmi 3 kəndi vardır. Bu kəndlər Katex (7134 nəfər), Qullar (5882 nəfər) və Tülü (5816 nəfər) kəndləridir. Kəndlərin əksəriyyəti rayon mərkəzinə yaxın yerləşir.

Zaqatala inzibati rayonunun kənd məskunlaşması 60 kənd ilə təmsil olunur. Ümumi kəndlərin 17,9%-ni təşkil edir. Bu kəndlərdə 96,5 min nəfər

əhali yaşayır. İqtisadi rayon əhalisinin 21,6%-ni təşkil edir. İnzibati rayonun kəndləri 100-1500 metr mütləq yüksəklikdə yerləşir. Ən yüksəkdə yerləşən kənd yaşayış məntəqəsi Qarqaydır. Ən çox əhalisi olan kənd isə Yuxarı Tala kəndidir. Kəndlərin əksəriyyəti rayonun əsas nəqliyyat xətlərinin və çayların kənarlarında yerləşir. Burada kəndlərin bir qismi Zaqatala-Əli Bayramlı avtomobil yolu ilə Balakən sərhədi ərazisində Yuxarı Tala, Aşağı Tala, Danaçı, Əli Bayramlı, Çökəkoba, Mazıx, Car kimi iri kəndlər və digər kiçik yaşayış məntəqələri yerləşir. Kəndlərin digər sıx yerləşdiyi ərazi isə Bakı-Balakən avtomobil xəttindən şimaldadır. Bura Muxax, Yeni Suvagil, Yuxarı Çardaxlar, Gözbarax kimi kəndlər aiddir. Qaxıx-Əyriçay çökəkliyində Bəhmətli, Mosul, Muğanlı, Lahıc, Faldarlı, Qandax və s. kəndlərinə rast gəlmək olar. Kənd məskunlaşma sistemində əhalisi 1001-2000 nəfər olan kəndlər üstünlük təşkil edir. Onların sayı 13-dür. Daha sonra isə əhalisi 501-1000 nəfər olan kəndlərdir (12 kənd). Zaqatala inzibati rayonunun ən böyük kəndləri Danaçı, Yuxarı Tala, Aşağı Tala və Muxax yaşayış məntəqələridir.

Qax rayonunda 58 kənd yaşayış məntəqəsi mövcuddur [9]. Regionun ümumi kəndlərinin 17,3%-i buradadır. Kəndlərin əksəriyyəti çay kənarlarında yerləşir. İnzibati rayonlarda kəndlər əsasən 150-1500 m yüksəklikdə yerləşmişlər. Ən yüksəkdə yerləşən kənd 132 nəfər əhalisi olan Sarıbaş kəndidir. Bu kənd eyni zamanda Şəki-Zaqatala iqtisadi rayonu üzrə ən yüksəkdə (1600 m) yerləşən kəndidir.Ən çox əhalisi olan Qaxbaş kəndi 760 m hündürlükdə yerləşir. Qax inzibati rayonunda 43,4 min nəfər kənd əhalisi yaşayır, bu isə iqtisadi rayonun kənd əhalisinin 9,7%-ni təşkil edir. Qax rayonunun kənd məskunlaşma sistemində birinci yeri əhalisinin sayı 201-500 nəfər olan kəndlər tutur. Onların sayı 17-dir. Bu inzibati rayonun kəndlərinin 29,3%-ni təşkil edir. Qax rayonu əhalisi əsasən azsaylıdır. Burada əhalisinin sayı 5000-dən çox olan kənd yoxdur. Bəzi kəndlər əsas məskunlaşma areallarından kənarda yerləşdiklərinə görə əhali sayı çox azdır. Elə kəndlər var ki, orada əhali sayı 35 nəfərdən azdır. Onlara Kiçik Alatəmir, Keşqutan, Qımırlı, Bağtala kəndlərini misal göstərmək olar. Qaxbaş kəndi isə rayon mərkəzinə yaxın yerləşdiyinə görə əhalisi 3000 nəfərdən çox olmuşdur. Qax İnqloy və Güllük kəndləri də Qax şəhərinə yaxın yerləşdiklərinə görə əhali sayı kifayət qədər çoxdur. Kəndlərin əksəriyyəti Kürmükçay, Qumçay, Qaraçay, Qaşqaçay və s. çayların kənarında yerləşir. Mütləq hündürlüyü aşağı olan ərazilərdə Üzümlükənd, Ağyazı, Qındırğa, Lələli və s. kəndlər yerləşir. Yüksək hündürlüklü kəndlərə isə İlisu, Sarıbaş, Ağçay, Armudlu və s. kəndləri missal göstərmək olar. Kürmükçayın sol sahillərində Əlibəyli, Almalı, Qıpçaq, Kürmükçayın aşağı axarında Tasmalı, Turaclı, Qorağan, Zəyəm kənd arealları yerləşir. Qax-Zaqatala avtomobil yolu üzərində üç böyük kənd, Zərnə, Ləkit, Qum kəndləri vardır.

Şəki-Zaqatala iqtisadi rayonunda ən çox yaşayış məntəqəsi Şəki rayonundadır. İqtisadi rayonun kəndlərinin 68-i, yəni 20,2%-i buradadır. Kənd əhalisinin sayı 115,9 min nəfər olmaqla, iqtisadi rayonun kənd əhalisinin 25,9%-ni təşkil edir. Şəki rayonu respublikamızın qədim məskunlaşma areallarından biridir [5]. Rayonun məskunlaşma strukturunda əsas yeri əhalisi 1001-2000 nəfər olan kəndlər tutur. Onların sayı 19-dur. Şəki inzibati rayonunun kəndləri 150-1500 metr yüksəklikdə yerləşən kəndlərdir. Ən yüksəkdə yerləşən Kiş kəndidir. Ən çox əhalisi olan kənd isə Kiçik Dəhnə (7941 nəfər) kəndidir. Şəki inzibati rayonunda əhalinin əksəriyyəti düzənlik və alçaq dağlıqda, çay kənarlarında məskunlaşmışdır. Ərazisinin böyüklüyü və relyef xüsusiyyətlərinə görə kəndlərin rayon mərkəzi ilə əlaqələri zəifdir. Ən böyük kəndləri Kiçik Dəhnə, Baş Göynük, Kiş və Böyük Dəhnədir. Rayon mərkəzi ilə məsafə çox deyil və buna görə də kəndlərin inkişafı digərlərinə nisbətən yuxarıdır. Şinçay və Cunutçay çaylarının vadisində Şin, Baş Göynük, Birinci Biləcik, Cunut, Baş Layısqı, Şabalıd və s. kəndlər yerləşir. Bu kəndlər dağlıq və dağətəyi zonalarda salınmışdır. Şəki şəhərindən şərqdə Baş Zəyzid, Orta Zəyzid, Vərəzət, Baş Kəldək və s. kəndləri Oğuz rayonu istiqamətində yerləşmişdirlər. Əyriçay ilə Əlicançay arasında Aşağı Küngüt, Aydınbulaq, İbrahimkənd, Dərəcənnət kəndləri vardır.




***Şəkil 2.*** *Şəki-Zaqatala iqtisadi rayonunun kəndlərinin əhali sayına görə məskunlaşma strukturu, %*

Oğuz rayonu iqtisadi rayonun ən az kəndi (33 kənd) olan inzibati mərkəzidir. Rayonun kənd əhalisi 36,3 min nəfərdir. Bu, iqtisadi rayonun kənd əhalisinin 8,1%-dir. Kəndlər rayonda qeyri-bərabər paylanmışdır. Onlar 350-1500 metryüksəklikdə yerləşmişlər. Ən yüksəkdə yerləşən kəndi Baş Daşağıl kəndidir [9]. Ən çox əhalisi olan kəndi isə Xaçmaz kəndidir. Yaşayış

məntəqələrinin qruplaşmasında əhalisi 501-1000 nəfər olan kəndlər üstünlük təşkil edir. Həmin kəndlərin sayı 14-dür, bu da inzibati rayonun kəndlərinin 42,4%-dir. Böyük kəndləri Xaçmaz, Kərimlı və Padarlıdır. Ən kiçik kəndi isə Hallovardır. Kəndlərin əksəriyyəti çay vadilərində yerləşir. Oğuz rayonu ərazisində də relyef şəraiti ilə əlaqədar olaraq kəndlər səpələnmiş haldadır. Rayonun şimal və qərb hissəsində kəndlərin sıxlığı azdır. Bəzi kəndlər daha yüksəkdə yerləşməklə məskunlaşma arealından kənardadır. Onlara Bucaq, Muxax, Baş Daşağıl, Filfili və s. kəndləri misal göstərmək olar. Xaçmaz kəndi dağlıq ərazidə yerləşməsinə baxmayaraq, böyük kənddir. Bayan, Qumlaq, Şirvanlı, Tayırlı, Sincan, Mollalı, Tərkeş və s. kəndlər isə kiçik kənd qruplarına aiddir. İnzibati rayonun kəndləri əsasən çay vadilərində yerləşir. Oğuz rayonu kəndləri üçün əsas magistral yollarından kənarda qalması səciyyəvidir. Vladimirovka və Astraxanovka kəndləri əsas məskunlaşma arealından kənardadır.

Qəbələ rayonunun ərazisinin böyük olmasına baxmayaraq, onun yalnız yarıya qədərində əhali məskunlaşmış və kənd yaşayış məntəqələri salınmışdır. Buna səbəb rayonun relyef quruluşudur [11]. Qəbələ rayonunun şimal hissəsi yüksək dağlıq, cənub hissə isə məskunlaşma üçün əlverişsiz iqlim və relyef şəraiti mövcud olmuşdur. İnzibati rayonun mərkəz hissələri uzun müddət az mənimsənilmiş sahələr olmuşdur. Türyançay, Dəmiraparançay, Vəndamçay, Bumçay, Qaraçay, Qobuçay və s. çayların rayon ərazisindən keçməsi məskunlaşma üçün əlverişlidir. Qəbələ rayonunda ən yüksək hündürlüyə malik kəndlər Laza, Qəmərvan və Küsnətdir. Rayonun kənd yaşayış məntəqələrinin çox hissəsi Qəbələ şəhərindən cənubda yerləşir. İnzibati rayonda kəndlər 200-1500 metr yüksəklikdə yerləşmişdir. Ən yüksəkdə yerləşən kənd yaşayış məntəqəsi Qəmərvan kəndidir. Ən çox əhalisi olan Mıxlıqovaq kəndi 600 m yüksəklikdə yerləşir. Ümumilikdə burada 60 kənd var. Rayonun kənd əhalisinin sayı 69,8 min nəfər olmaqla, iqtisadi rayonun kənd əhalisinin 15,6%-i burada yaşayır. Əhalisinin sayı 501-1000 nəfər olan kəndlər (19 kənd) rayonda üstünlük təşkil edir. İnzibati rayonun ən böyük kəndləri Mıxıqovaq və Nohurqışlaqdır.

Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda kəndlərin yüksəklik qurşaqları üzrə yerləşməsi əsasən əlverişli coğrafi mövqe, relyef xüsusiyyətləri, iqlim şəraitinin müxtəlifliyi ilə müəyyən olunur. Ümumi əhalinin və kənd əhalisinin qeyri-bərabər məskunlaşması, ərazinin mənimsənilməsi baxımından regiondaxili fərqlər müşahidə edilir [8]. Bu müxtəliflik kəndlərin tipi, forması və ixtisaslaşmasında özünü göstərir. Bu problemləri həllində ərazinin şaquli qurşaqlar üzrə yerləşməsi mühüm rol oynayır. İqtisadi rayon ərazisi üzrə düzənlik və dağətəyindən daha yüksəkliyə doğru qalxdıqca, kəndlərin böyüklüyü bir qayda olaraq kiçilir. Bəzi hallarda onun əksinə olaraq, daha yüksəkdə yerləşən iri kəndlərə rast gəlinir. Balakən rayonunda Mahamalar,

Zaqatala rayonunda Muxax, Yuxarı Tala, Qax rayonunda Qum, Şəki rayonunda Baş Layısqı, Baş Göynük, Baş Zəyzid,

Qəbələ rayonunda Qəmərvan kəndləri bu tipli kəndlərdəndir. Qanıx-Əyriçay vadisinin cənub-şərq hissəsində əhalinin sıxlığı nisbətən aşağıdır.

Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda ayrı-ayrı inzibati rayonların və onların kəndlərinin yüksəklik qurşaqları üzrə yerləşməsini əyani olaraq aşağıdakı xəritədən görmək mümkündür (Şəkil 3).




***Şəkil 3.*** *Şəki-Zaqatala iqtisadi rayonunda kəndlərin yüksəklik qurşaqları üzrə yerləşməsi*

Şəki-Zaqatala iqtisadi rayonunda 200-1000 m hündürlükdə kənd əhalisinin 90%-ə yaxını məskunlaşmışdır. Kənd yaşayış məntəqələrinin 94%-i bu yüksəklik daxilindədir. Təsərrüfat fəaliyyətinin inkişafı üçün dağətəyi və alçaq dağlıq qurşaqlarda təbii şərait əlverişlidir. Həmçinin, bu zonadan keçən nəqliyyat əlaqələri əhalinin dağlıq kəndlərdən aşağıda yerləşən yaşayış məntəqələrə toplanmasına səbəb olmuşdur. Bu kəndlərə İlisu, Sarıbaş, Daşqıl, Qarabulaq, Göynük və s. misal göstərmək olar. Beləliklə, Şəki-zaqatala iqtisadi rayonunda kənd məskunlaşmasının inkişafı ilə əlaqədar olaraq yeni məskunlaşma formaları əmələ gəlir. İqtisadi rayonun ərazisinin çox hissəsi dağlıq və dağətəyi zonadan ibarət olması mülayim iqlimin formalaşmasına təsir göstərmiş və ərazidəki kəndlərin böyük olmasına gətirib çıxarmışdır.

Şəki-Zaqatala iqtisadi rayonunun nisbətən dağətəyi, düzən, çay sahilləri, ovalıq və hamar əraziləri oroqrafiya və hündürlük vəziyyəti baxımından kənd məskunlaşması üçün tam yararlıdır. İqtisadi rayonun bəzi çox parçalanmış, girintili-çıxıntılı və sıldırım qayalıq və şiş formalı tam parçalanmış torpaq ərazilərindən məskunlaşma üçün istifadə edilmir.

Şəki-Zaqatala iqtisadi rayonunda kənd məntəqələri 3 coğrafi ərazi qrupuna bölünür:

*Düzən ərazilərdə yerləşən kəndlər.* Burada yerləşən kəndlərə əsasən çaylararası və suayırıcılarda salınmış kəndləri aid etmək olar. Bu kəndlər iqtisadi rayonun dəniz səviyyəsndən 600-650 m hündürlükdə olan ərazilərində yerləşir.

*Dağətəyi ərazilərdə yerləşən kəndlər.* İqtisadi rayonun dağətəyi ərazilərində salınmış məntəqələri müxtəlif tipli olması ilə fərqlənir. Bu tip kəndlər bir qayda olaraq çay dərələrində, nisbətən hamar parçalanmış relyef formalı ərazilərdə və s. yayılmışdır. Bu kəndlərə Şəki, Zaqatala və Qax inzibati rayonlarının orta dağlıq və dağətəyi ərazilərindəki kəndlər daxildir. Bunlara misal olaraq, Kiş, Baş Göynük, Aşağı Göynük, Baş Zəyzid, Car, Qəbizdərə, Sarıbaş, İlisu,Ləkit Kötüklü, Zərnə, Çinarlı, Ləkit və s. göstərmək olar.

*Dağ kəndləri.* İqtisadi rayonun dağlıq ərazisinin relyefi çox müxtəlifdir. Bu ərazilərdə kəndlər çay dərələrində yerləşir. Katexçay, Kinçay, Sarıbaş və s. bu qrupa daxildir. Bu tip kəndlər dağlıq ərazilərin kənd təsərrüfatına yararlı hissəsində, otlaq və biçənəklərdə, meşələrin talalarında salınmışdır.

## Nəticə

Şəki-Zaqatala iqtisadi rayonunun kənd yaşayış məntəqələrində əhalinin məskunlaşma strukturu və inzibati rayonlar üzrə təhlili zamanı aşağıdakı nəticələr alınmışdır:

- Kəndlər ən çox və sıx dağətəyi-düzən ərazilərdə, çay kənarlarında yerləşir. Buna müvafiq olaraq əhali də burada sıx məskunlaşmışdır. Kənd yaşayış məntəqələrinin çoxu, yəni 24,4%-i əhalisi 501-1000 nəfər olan kəndlərdir. Daha sonra əhalisi 1001-2000 nəfər olan kəndlər (21%) və əhalisi 201-500 nəfər olan (20%) kəndlər təşkil etmişdir.
- Oğuz rayonunda kənd əhalisinin 50-dən az olan kəndi yoxdur. Qax və Qəbələ rayonunda isə əhalisi 5000 nəfərdən çox olan kənd yaşayış məntəqəsi yoxdur.
- Şəki rayonunun Kiçik Dəhnə kəndi əhali sayına görə Şəki-Zaqatala iqtisadi rayonu üzrə ən çox əhali (7941 nəfər) məskunlaşan kəndidir.
- Şəki-Zaqatala iqtisadi rayonunda kənd məskunlaşması üçün geniş demoqrafik potensial mövcuddur. İqtisadi-coğrafi rayonun perspektiv təbii-coğrafi və sosial-iqtisadi inkişafından istifadə etməklə dağlıq ərazilərin mənimsənilməsi həyata keçirilməli, artan demoqrafik potensialın yerlərdə

saxlanılmasına nail olunmalıdır. Hər bir inzibati rayona xas əhali məskunlaşması xüsusiyyəti nəzərə alınmalıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycanın regionları. Bakı, DSK, 2021, 844 s.
2. Azərbaycan Respublikası əhalisinin 2019-cu il siyahıya almasının yekunları. I hissə. Bakı, DSK, 2022, 682 s.
3. Azərbaycan Respublikasının Coğrafiyası "Regional coğrafiya" III cild, Bakı: Avropa, 2015, 400 s.
4. Azərbaycan Respublikasının regional coğrafi problemləri. Şəki-Zaqatala iqtisadi rayonu. 2003. 190 s.
5. Azərbaycan Respublikasında kəndlərin demoqrafik inkişafı və kənd əhalisinin məskunlaşması problemləri. Bakı, 2021, 552 s.
6. *Budaqov B.Ə., Mərdanov İ.E., Eminov Z.N.* Azərbaycanda yaşayış məntəqələrinin yüksəklik qurşaqları üzrə yerləşməsi qanunauyğunluqları // AMEA xəbərləri, "Yer elmləri" seriyası, 2006, № 3, s. 89-97.
7. *Eyyubov N.H., Abdullayeva G.İ.* Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda əhalinin yüksəklik qurşaqları üzrə yerləşməsi: meyillər və təkmilləşdirilmə // *"Coğrafiya və təbii resurslar" jurnalı,* Bakı, 2015. № 1, s. 79-82.
8. *Kərimov R.N.* Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda kənd məskunlaşmasının tədqiqi // *"Coğrafya və təbii resurslar" jurnalı,* Bakı, 2015. № 2, s. 95-99.
9. Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda əhali məskunlaşması və demoqrafik inkişaf problemləri, Bakı, 2016, 184 s.
10. *Tahirova H.M.* Şəki-Zaqatala iqtisadi rayonunun demoqrafik inkişaf xüsusiyyətləri. /"Azərbaycan Respublikasında demoqrafik inkişaf: əhali məskunlaşmasının perspektivləri və regional problemləri" elmi konfrans, Bakı: 2016, s.52-62.
11. *Umaxanlı S.* Böyük Qafqazın cənub yamacında kənd əhalisinin yüksəklik qurşaqları üzrə məskunlaşmasına təsir edən təbii amillər / "Heydər Əliyevin Azərbaycanda elm və təhsilin inkişafında rolu" Respublika elmi-praktiki konfransın materialları, Bakı, 2023, s. 190-194.


Redaksiyaya daxil olub 03.04.2025